# Qəbələ sosial-iqtisadi inkişafın və mədəni həyatın dönüş mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2012-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

(Əvvəli 6-cı səhifədə).

Qəbələ Rəsm Qalereyasında 2012-ci ildə 23 sərgi keçirilmiş, 206 əsər nümayiş etdirilmişdir. Tarix-diyarşünaslıq muzeyinə 5 mindən çox tamaşaçı gəlmiş, 242-dən yuxarı ekskursiya xidməti təşkil olunmuşdur.

SEBA təşkilatının yaxından köməkliyi ilə tarix-diyarşünaslıq muzeyinin eksponatları haqqında 3 dildə yeni broşür və kitablar hazırlanmış, Qəbələ haqqında geniş məlumat verən bələdçi kitabı nəşr edilmişdir.

Heydər Əliyev Mərkəzini 2012-ci ildə ziyarət edənlərin sayı 4.600 nəfərə yaxın olmuşdur. Mərkəzə 218 ekskursiya təşkil olunmuş, burada 115 mühazirə oxunmuş, 48 tarix və "Heydər Əliyev irsini öyrənirik" adlı ideoloji dərslər təşkil olunmuşdur.

Qəbələ Tarix-Bədii Qoruğu yeni inzibati binaya köçürülmüş, qoruqda AMEA-nın Tarix və Etnoqrafiya İnstitutunun alimləri tərəfindən arxeoloji qazıntılar davam etdirilmişdir.

Rayonumuzda turizm infrastrukturun sürətli inkişafı ilə əlaqədar 2012-ci ildə Qəbələyə 51 min nəfər turist gəlmişdir ki, bunların 11 min nəferini xarici turistlər təşkil etmişdir. Mövcud turizm potensialı, turizm obyektlərinin xidmətləri barədə geniş məlumatlar internet səhifələrində öz əksini tapmışdır.

Gənclər və idman idarəsi tərəfindən 2012-ci il ərzində 52 tədbir həyata keçirilmişdir. Onlardan gənclərlə iş sahəsi üzrə keçirilən 27 tədbirdə 6.833 nəfər iştirak etmiş, kütləvi bədən tərbiyəsi və idman sahəsini əhatə edən 25 tədbirdə isə 2000-dən artıq idmançının iştirakı təmin edilmişdir.

Respublika tədbirlərində 54 dəfə nümayəndələrimiz təmsil olunmuşdur. Belə ki, gənclərlə iş sahəsində respublika üzrə keçirilən 19 tədbirdə 156 nəfər gənc, idman sahəsi üzrə isə 35 yarış və birincilikdə 337 nəfər idmançı iştirak etmişdir.








*Qəbələ IV Beynəlxalq Musiqi Festivalının açılışında.*
*Fotolar Səhrab Umuyevindir.*

Rayonumuz 2012-ci il ərzində bir neçə beynəlxalq və respublika səviyyəli yarışa - "Offroard" avtomobil yarışı üzrə Beynəlxalq turnirə, ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş Beynəlxalq velosiped turnirinə, I Qəbələ Kuboku Futbol turuna, "Olimpiya Yol yürüşü" adlı kütləvi idman tədbirinə, Velosiped üzrə Azərbaycan Çempionatına, I Ümumrespublika "Gənc xilasedici və yanğınsöndürən" yarışının final mərhələsinə ev sahibliyi etmişdir. Rayonda idmanın maddi-texniki bazasının möhkəmləndirilməsinin nəticəsidir ki, sərbəst güləş, boks və taekvondo idman növləri üzrə Azərbaycan yığma komandaları təlim-məşq üçün Qəbələni seçmişlər.

İdmançılarımız 2015-ci ildə Bakıda keçiriləcək Avropa Olimpiya Oyunlarında iştirak etmək üçün yüksək peşəkarlığa yiyələnməklə uğurlu göstəricilərə nail olmağı hədəf götürmüşlər.

Qəbələ Peşə məktəbində 2012-ci ildə şagirdlərin sayı 145 nəfər olmuşdur. Yeni tədris ilində məktəbə 180 nəfər şagird qəbul edilmişdir. Şagirdlərin 40 nəfəri ümumi orta təhsil bazasından, 140 nəfəri tam orta təhsil bazasından qəbul olunmuşdur.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi respublikamızda inşa edilən ilk müasir peşə tədris mərkəzidir.

Hazırda tədris mərkəzində 6 ixtisas üzrə oğlanlar və qızlardan ibarət 198 nəfər şagird dövlət hesabına təhsil alır. Onların 98 nəfəri ümumi orta təhsil bazasından, 100 nəfəri isə tam orta təhsil bazasından olan şagirdlərdir. 2012-ci ilin iyun ayında 136 nəfər şagird buraxılış imtahanı verərək müvafiq peşələr üzrə diplomlara sahib olmuşlar.

Qəbələ rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən ilin əvvəlindən yoluxucu xəstəliklərin qarşısının alınması, sanitar profilaktiki tədbirlərin həyata keçirilməsi məqsədi ilə ayrı-ayrı sahələr və yoluxucu xəstəliklər üzrə kompleks tədbirlər planı tərtib olunmuşdur.

2012-ci ildə təqvim üzrə immunizasiyaya cəlb ediləcək uşaqlar müəyyənləşdirilmiş, bununla bağlı plan tutularaq rayonun bütün müalicə-profilaktika idarələrinə paylanılmışdır. Müalicə idarələri kifayət qədər BSJ, polimielit, hepatit B, AKDS, QPM və ADS vaksini ilə təmin edilmişdir.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reysterinin forması və aparılması qaydası haqqında" əsasnaməyə uyğun olaraq mərkəz 326 sahibkarlıq subyektində sanitar müayinələri keçirmişdir.

(Ardı 8-ci səhifədə).